# “Abşeron”u kəşf edən şirkət

**Fransanın “Total” şirkəti qlobal çoxsahəli enerji istehsalçısı və təchizatçısıdır. Aparıcı beynəlxalq neft və qaz şirkəti olmaqla yanaşı, azkarbonlu enerji istehsalı ilə də məşğuldur. “Total” enerji resurslarının kəşfiyyatını aparır, hasilatını həyata keçirir, müxtəlif məhsullar istehsal edir və onları bazara paylaşdırır.**






Şirkət istehlakçıların ehtiyaclarını qarşılamaq üçün kəşfiyyat və istehsal sahələrində daim yeniliklər edir. Neft, qaz, bioloji və günəş enerjiləri layihələri həyata keçirməklə davamlı və etibarlı fəaliyyət göstərir. Qazandığı zəngin təcrübə “Total”a avtomobil, qablaşdırma vasitələri və məişət avadanlıqları kimi geniş çeşidli gündəlik tələbat malları istehsal etməyə də imkan verir. Şirkət karbohidrogenlərin emalı ilə də məşğul olur, istehsal etdiyi enerjini uzun və mürəkkəb logistika zənciri vasitəsilə istehlak mərkəzlərinə çatdırır.

“Total” dünyanın 130-dan çox ölkəsində fəaliyyət göstərir. Şirkətin əməkdaşlarının sayı 98 minə çatır. Onlar təhlükəsiz, səmərəli və keyfiyyətli enerji təchizatı prinsiplərinə daim sadiq qalan işçilərdir. Bu da şirkətin əməliyyatlarının davamlı iqtisadi, sosial və ekoloji faydasını təmin edən başlıca şərtlərdəndir.

Fransa, Almaniya, Belçika, Hollandiya, Lüksemburq, İtaliya və onlarca digər ölkədə “Total” tərəfdaşları ilə birlikdə neft və qaz sənayesinin müxtəlif sahələrini əhatə edən çoxsaylı layihələr gerçəkləşdirir. Keçən il şirkətin təkcə Rusiya və Norveçdə neft-qaz hasilatı gündə orta hesabla 761 min barel neft ekvivalenti təşkil edib ki, bu da qrupun çıxardığı karbohidrogenlərin ümumi həcminin 30 faizinə bərabərdir.

“Total” Azərbaycanda həyata keçirilən bir sıra layihələrdə etibarlı tərəfdaşımızdır. Şirkət ofisini Bakıda 1996-cı ildə açıb və o vaxtdan ölkəmizlə uzunmüddətli tərəfdaşlığının möhkəm təməlini qoyub.

1997-ci ildə “Total” şirkəti “Lənkəran-Talış” dəniz blokunun kəşfiyyat işlərinə və “Şevron”la (ABŞ) birgə “Abşeron” layihəsinə qoşulmuşdu. Lakin ilk kəşfiyyat işləri müsbət nəticələnməmişdi. “Şevron” şirkəti “Abşeron”da işləri dayandıraraq 2001-ci ildə layihəni təhvil vermişdi.

2009-cu ildə “Total” yenidən “Abşeron”a qayıtdı. SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) “Abşeron” yatağında müqavilə ərazisini əhatə edən Kəşfiyyat, İşlənmə və Hasilatın Pay Bölgüsü Sazişini (HPBS) imzaladı. 2011-ci ildə “Total E&P Absheron” şirkəti HPBS-yə uyğun kəşfiyyat mərhələsində əməliyyatçı kimi çıxış edərək sözügedən ərazidə böyük bir qaz yatağını kəşf etdiyini bildirdi.

“Abşeron” Xəzərin Azərbaycan sektorunda, Bakıdan 100 kilometrlik məsafədə, suyun 500 metr dərinliyində yerləşir. Orada qazılan quyunun ilk nəticələri bir neçə trilyon kubfut qaz, eləcə də kondensat ehtiyatlarının olduğunu təsdiqlədi. Qazma zamanı yatağın quruluşu ilə bağlı bir sıra problemlər ortaya çıxsa da, “Total” dünyanın müxtəlif neft regionlarında işləyərkən topladığı zəngin təcrübəni və mütəxəssisləri səfərbər edərək müsbət nəticəyə nail oldu. Beləliklə, yatağın işlənməsinə start verildi.

Aparılan tədqiqatlar nəticəsində “Abşeron”un Erkən Hasilat Sxemi əsasında işlənməsi qərara alınıb. Bu sxem sualtı quyunun Neft daşları yaxınlığındakı qəbuledici platformaya qoşulmasına əsaslanır. Burada qaz ilkin emaldan keçiriləcək, sonra mavi yanacaq və kondensat ayrı-ayrı xətlərlə SOCAR-ın mövcud infrastrukturu ilə nəql olunacaq. Qazın yerli bazara nəqli, kondensatın əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinə vurulması nəzərdə tutulub.

BTC-dən söz düşmüşkən xatırladaq ki, “Total” bu kəmərin 11 səhmdarından biridir. Şirkət BTC konsorsiumuna 2005-ci ildə daxil olub və layihədə 5 faizlik payla iştirak edir.

“Total” Azərbaycanda bir sıra sosial layihələr həyata keçirir. Məsələn, gələcək neft mütəxəssislərinin Fransanın tanınmış ali məktəblərində təhsil və təlimlərinin təşkilinə kömək edir. Uzun illər SOCAR-ın mütəxəssisləri üçün fransız dilinin tədrisini maliyyələşdirib. Heydər Əliyev Fondu və Fransanın Mədəniyyət və Kommunikasiya Nazirliyinin birgə təşkil etdiyi “Fransanın inciləri” sərgisini dəstəkləyib. Xeyli müddət Bakıda yerli və xarici sənətkarların iştirakı ilə klassik musiqi konsertlərini təşkil edib. Bir sözlə, “Total” azərbaycanlı tələbələrin, məktəblilərin, fransız dilini öyrənmək istəyən gənclərin, incəsənət işçilərinin də yaxın dostudur.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

Azərbaycan.- 2018.- 9 iyun.- S.4.